2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 27 avqust 2024-cü il tarixli 32 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 28 avqust 2024-cü il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) növbədənkənar seçkilərdə 31 saylı Suraxanı ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Mahmudov Mahmud Avdı oğlunun həmin seçki dairəsi dairə seçki komissiyasının 26 avqust 2024-cü il tarixli 20/74 saylı qərarından verdiyi 27 avqust 2024-cü il tarixli 32 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun və nəzərdə tutulan şikayətvermə müddətində verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

M.A.Mahmudov müraciətində 24 avqust 2024-cü il tarixdə 31 saylı Suraxanı ikinci seçki dairəsi dairə seçki komissiyasına yazılı müraciət etdiyini, həmin seçki dairəsi üzrə digər qeydə alınmış namizəd Qaya Məmməd oğlu Məmmədovun seçkiqabağı çap təşviqat materiallarında – flayerlərdə Seçki Məcəlləsinin 87.3 və 87.5-ci maddələrinin tələblərinin pozulduğunu və buna görə Məcəllənin 87.9-cu maddəsinə uyğun olaraq tədbirlər görülməsini xahiş etdiyini bildirmişdir.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun Komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Dairə seçki komissiyasının 26 avqust 2024-cü il tarixli qərarı ilə müraciət təmin edilməmişdir. Dairə seçki komissiyası öz qərarını onunla əsaslandırmışdır ki, qeydə alınmış namizəd Q.M.Məmmədov seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq seçkiqabağı təşviqat zamanı çap olunan seçkiqabağı təşviqat materiallarının surətlərini (nüsxələrini) 31 saylı Suraxanı ikinci seçki dairəsinin dairə seçki komissiyasına təqdim etmişdir. Təqdim edilmiş materiallara araşdırma zamanı yenidən baxış keçirilmiş və müəyyən edilmişdir ki, təşviqat materiallarında sifarişçinin adı, materialları hazırlayan təşkilatın adı, tirajı və buraxılış tarixi barədə məlumatlar qeyd edilmişdir. Araşdırma nəticəsində seçkiqabağı təşviqat materialları hazırlanarkən qanunvericiliyin tələblərinin pozulması halı öz təsdiqini tapmamışdır.

Dairə seçki komissiyasının iclasında qeydə alınmış namizəd M.A.Mahmudovun iştirakı təmin edilmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından M.A.Mahmudovun şikayətinin araşdırılması materialları, həmçinin dairə seçki komissiyasına rəsmi olaraq Q.M.Məmmədov tərəfindən təqdim olunmuş seçkiqabağı çap təşviqat materiallarının surətləri (nüsxələri) tələb olunaraq araşdırılmışdır.

Müraciətin araşdırılması ilə əlaqədar 31 saylı Suraxanı ikinci seçki dairəsi dairə seçki komissiyasının sədrindən, katiblərindən, üzvündən və dairə seçki komissiyası katibliyinin baş məsləhətçisindən alınan izahatlardan müəyyən olunur ki, Q.M.Məmmədov seçki qanunvericiliyinin tələblərinə tam uyğun olaraq çap olunmuş seçkiqabağı təşviqat materiallarının surətlərini (nüsxələrini) və digər zəruri məlumatları qanunvericiliklə müəyyən olunmuş müddətdə dairə seçki komissiyasına təqdim etmişdir.

Həmçinin dairə seçki komissiyasında tərtib olunmuş 24 avqust 2024-cü il tarixli aktdan məlum olur ki, dairə seçki komissiyasında aparılan araşdırma zamanı qeydə alınmış namizəd Q.M.Məmmədov tərəfindən Seçki Məcəlləsinin 87.4-cü maddəsinə əsasən dairə seçki komissiyasına təqdim edilmiş çap təşviqat materiallarının surətlərinə (nüsxələrinə) şikayətçi M.A.Mahmudovun iştirakı ilə baxış keçirilən zaman həmin çap təşviqat materiallarının üzərində zəruri məlumatların olması öz təsdiqini tapmışdır.

Araşdırma prosesində qeydə alınmış namizəd Q.M.Məmmədovun seçkiqabağı təşviqat materiallarının çap olunduğu mətbəəyə göndərilən sorğuya cavab olaraq verilmiş 28 avqust 2024-cü il tarixli arayışda Q.M.Məmmədovun sifarişi ilə hazırlanmış seçkiqabağı çap təşviqat materiallarının üzərində müvafiq rekvizitlər (materialları sifariş edənin, hazırlayan təşkilatın adı, tirajı və buraxılış tarixi) göstərilməklə 09 avqust 2024-cü il tarixdə çap edilərək sifarişçiyə təhvil verildiyi göstərilmiş, eyni zamanda təqdim olunmuş müvafiq hesab-fakturalar əsasında həmin çap təşviqat materiallarının dəyərinin ödənildiyi müəyyən edilmişdir.

Araşdırma ilə qeydə alınmış namizəd Q.M.Məmmədova aid seçkiqabağı çap təşviqat materiallarının Seçki Məcəlləsinin 87.3-cü maddəsinin tələblərinə uyğun olaraq çap edildiyi bir daha öz təsdiqini tapmışdır.

Beləliklə, araşdırma ilə müəyyən edilir ki, qeydə alınmış namizəd M.A.Mahmudovun həmin seçki dairəsindən digər qeydə alınmış namizəd Q.M.Məmmədovun seçkiqabağı çap təşviqat materiallarında – flayerlərdə Seçki Məcəlləsinin 87.3-ci və 87.5-ci maddələrinin tələblərinin pozulmasına dair iddiası öz təsdiqini tapmadığından şikayətin təmin edilməsi üçün əsaslar yaranmamış, bu əsasla M.A.Mahmudovun şikayətini təmin etməməklə dairə seçki komissiyası düzgün hüquqi nəticəyə gəlmişdir.

Göstərilənlərə əsasən qeydə alınmış namizəd M.A.Mahmudovun müraciəti əsassız olduğundan təmin edilməməli, dairə seçki komissiyasının mübahisələndirilən qərarı qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənlərə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 87-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2024-cü il sentyabrın 1-nə təyin olunmuş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 31 saylı Suraxanı ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Mahmudov Mahmud Avdı oğlunun 27 avqust 2024-cü il tarixli 32 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, həmin seçki dairəsi dairə seçki komissiyasının 26 avqust 2024-cü il tarixli 20/74 saylı qərarı qüvvədə saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

**Ekspert qrupunun üzvü** **Bəxşeyiş Əsgərov**